

**Gədəbəyə bayram şənliyindən bir gün əvvəl gəlmişdim. Fikirləşmişdim ki, uzaq yoldur, hər an Bakıdan çıxmaq olmur. Bu da bir fürsətdir. Bir halda ki, tədbirə qatılacağam, niyə də başqa materiallar hazırlamayım, tanınmış sənətkarlar, saz-söz əhli ilə görüşüb hal-əhval tutmayım, son vaxtlar bölgədə aparılan quruculuq işləri ilə yerindəcə tanış olmayım...**

# Unudulmaz görüşlər

İndi bu sətirləri yazarkən bu qərara gəldiyim üçün özümdən məmnun qalır, haqlı iş gördüyümü düşünürəm. Respublikamızın bu dilbər guşəsi, burada söhbət apardığım adamlar, şahidi olduğum hadisələrlə bağlı o qədər zəngin təəssüratım var ki, nədən başlayıb nədə qurtaracağımı hələ də ayırd edə bilmirəm...

Gədəbəy rayon mədəniyyət evinə yaxınlaşırdım ki, uzaqdan MKS direktoru Duman Nağıyevin gəldiyini gördüm. Yaman qayğılı görünürdü. Kollektiv üzvlərinin xarakterinə bələd olduğumdan anladım ki, sabahkı tədbirlə bağlıdır. İstər-istəməz Fazilə xanımın halını düşündüm:«İndi gör o nə vəziyyətdədir?!»

Əbəs yerə belə fikirləşmirdim. Rayon mədəniyyət və turizm şöbəsinin işinə yaxşı bələd idim. Bu gözəl kollektivi həmişə belə görmüşdüm. Bu və ya digər tədbirə nə qədər hazırlıqlı olsa da hər şey sona yetməyincə həyəcanını gizlədə bilmir. «Görəsən necə keçəcək?! Planlaşdırdığımız ssenari maraqlı alınacaqmı?! Qonaqların hamısı tədbirə qatıla biləcəkmi?! Onların istirahəti ürəklərincə olacaqmı?!»

Hadisələri qabaqlayaraq qeyd edək ki, hər şey yenə də əla alındı, gözlənildiyi kimi bu tədbir də yüksək səviyyədə təşkil olundu...

* * *

Bayaqkı söhbətimizə qayıdaq. Duman müəllim fikirli olduğundan məni görmədi. Ağır-ağır qapıya sarı yön alırdı ki, onu arxadan səslədim: «Ayə, a qardaş, qonağı belə qarşılayarlar?!»

Qayğılı çöhrəsinə təbəssüm qondu: «Siz allah, bağışlayın, görmədim. Sabahkı tədbirə hazırlaşırıq. Fazilə xanım tapşırıq vermişdi...»

Birlikdə ikinci mərtəbəyə qalxırıq. Fazilə xanım telefonla danışdığından içəri keçmirik. Bizi görüncə yerindən qalxır: «Buyurun!» Sonra da telefonla söhbətinə yekun vurur: «Hə oldu, gözləyirik!»

Təzədən üzünü mənə sarı tutur: «Xoş gəlibsiniz! Necəsiniz?! İşləriniz necədir?!»

Eyni sualı mən də verəsi oluram. Gülümsünür: «Belə də ... görək sabahkı tədbirimiz necə keçəcək? Qonaqlar da artıq Yevlaxa çatıblar. Yəqin ki, 3 saata burada olarlar...»

Bir az dayanır, qarşıdakı vərəqə qeydlər edir. Duman müəllimin məlumatını dinlədikdən sonra təzədən söhbətini davam etdirir: «Əslində tam hazırıq. Hər kəs tapşırığını alıb. Əvvəlcə açıq səma altında keçirməyi planlaşdırırdıq. Amma havaların yağmurlu keçməsi gözümüzü qorxutdu. Odur ki, mədəniyyət evində – böyük zalımız var – orada təşkil edəcəyik. Qonaqlarımız «Eldorado» mehmanxanasında yerləşdiriləcək. Yeyib-içməkləri də orada təşkil olunucaq...

* * *

Bu yerdə bir balaca haşiyə çıxmaq istəyirəm. Fazilə xanım Məmmədovanı rayon mədəniyyət və turizm şöbəsinə müdir təyin olunan vaxtdan tanıyıram. Özündə ən yüksək insani xüsusiyyətləri toplayıb. Son dərəcə abırlı, ləyaqətli, mehriban, qayğıkeş, səxavətli və təvazökardır. Sadəliyi və səmimiyyəti onu elin gözündə daha da ucaldıb. Hiss olunur ki, uşaqlıqda yüksək tərbiyə görüb. İndi o bu keyfiyyətləri kollektivinə, şöbənin özündə birləşdirdiyi müəssisələrin rəhbər və sıravi işçilərinə də təlqin edir.

Bu sətirlərin müəllifi demək olar ki, respublikanın bütün bölgələrində olub. Amma heç də hər yerdə bu cür mehriban kollektivlə üzləşməyib. Təbii ki, mehribanlıq olan yerdə heç bir problem duruş gətirə bilməz.





Gədəbəylilərlə ünsiyyətdə olduğum bu neçə ildə şöbədə bir dəfə də olsun görmədim ki, desinlər o sənin işindir, bu- mənim!

**Elə buradaca Fazilə xanımın xarakterində özünü büruzə verən daha bir xüsusiyyət aşkara çıxır. Burada hər kəs işinə ürəkdən bağlıdır, vəzifəsinə məsuliyyətlə yanaşır. Bütün bu cəhətlərin böyük bir ordunu xatırladan kollektivdə formalaşması isə ilk növbədə Fazilə xanım Məmmədovanın yüksək təşkilatçılıq bacarığının təzahürüdür.**

Təsadüfi deyildir ki, tədbir oldu-olmadı şöbə müdiri kimi inspektor da (Həzi Aslanov), MKS direktoru da (Duman Nağıyev), baş mühasib də (Qəzənfər Həsənov), rayon mədəniyyət evinin direktoru da (Etibar Əliyev) özünü hər şeyə cavabdeh, məsuliyyətli sayır. Bu da nəticəsi!

Eldə-obada dolaşan söhbət məndə daha çox fərəh doğurdu: «Mədəniyyətimizdəki bu dirçəlişin hamısı Fazilə xanımın rəhbərliyi dövrünə təsadüf edir. O elə gənclik illərində də belə fəal olub. Raykomun ikinci və üçüncü katibi vəzifələrində işləyən vaxt bircə bilsəydiniz Gədəbəyin inkişafı üçün nələr etmirdi...

Biz mədəniyyət və turizm nazirindən də, rayon icra hakimiyyətinin başçısından da çox razıyıq ki, şöbəyə bu cür ləyaqətli ziyalını rəhbər təyin edib, bütöv bir



kollektivin taleyini məhz ona tapşırıb. Fazilə xanımla işləməyə nə var. Vəzifəsindən sui-istifadə etmir, tabe - liyində olan adamların mənliyini tapdalamır, xalqın, cəmiyyətin sabahını düşünür. Belələri ən yüksək mükafata layiqdir. Hələ də inana bilmirik ki, Fazilə xanıma indiyədək fəxri ad verilməyib...»

* * *

**Gədəbəy Rayon Mədəniyyət və Turizm Şöbəsinin nəzdində 1 tarix-diyarşünaslıq muzeyi, 28 mədəniyyət evi, 22 klub, 1 şəhər incəsənət məktəbi, 3 kənd uşaq musiqi məktəbi və 109 kitabxana fəaliyyət göstərir.**

Bu kollektivlərin birgə səyi ilə Azərbaycan Respublikası prezidenti və hökumətinin regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar məlum fərman və qərarlarının yerinə yetirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Böyük Qaramurad, Qaraməmmədli, Zəhmət, Samanlıq, Nərimankənd, Slavyanka kənd mədəniyyət evləri, Gər-Gər kənd klubu, Düz-Rəsullu kənd uşaq musiqi məktəbi əsaslı təmir olunmuş, müvafiq avadanlıq və inventarlarla təchiz edilmişdir...

(*davamı 41-ci səhifədə*)



# Unudulmaz görüşlər




**İncəsənət və uşaq musiqi məktəblərində maddi-texniki bazanı möhkəmləndirmək məqsədi ilə müəyyən tədbirlər görülmüş, əsaslı və cari təmir işləri aparılmış, həmin müəssisələrə avadanlıq və musiqi alətləri alınıb verilmişdir.**

Rayon tarix-diyarşünaslıq muzeyində mədəniyyət və turizm nazirliyinin dəstəyi və maddi köməyi ilə əsaslı bərpa işləri aparılmış, muzey eksponatlarla təmin olunmuşdur. Eksponatların toplanması bu gün də davam edir.

Gədəbəy rayonu qədim tarixi abidə və qalalarla zəngindir. Həmin abidə və qalaların müəyyən hissəsi şöbə tərəfindən mühafizə edilir. Son iki ildə onların inventarlaşdırılması işi aparılmış, bukletlər buraxılmış, respublika və beynəlxalq səviyyəli mətbuata yazılar verilmişdir.

Gədəbəy Rayon İcra Hakimiyyətinin köməyi ilə bölgədə turizm obyektlərinin tikilməsi və istifadəsi baxımından məqsədyönlü işlər aparılır. Belə ki, Slavyanka kəndində «Aşağı narzan», «Yuxarı narzan», «Eldorado», «Şınıx», Saratovka kəndində «Göyçə» ailəvi istirahət





mərkəzləri tikilib istifadəyə verilmiş və rayona gələn qonaqlar və turistlər tərəfindən müsbət qarşılanmışdır.

Şöbənin yerləşdiyi rayon mədəniyyət evi icra hakimiyyətinin təşəbbüsü və dəstəyi, vergilər nazirliyinin təşkilatçılığı ilə əsaslı təmir edilmişdir. Şöbə tərəfindən isə avadanlıq və digər inventarla təmin edilərək müasir mədəniyyət sarayına çevrilmişdir.

**Son iki ildə Gədəbəy İcra Hakimiyyətinin dəstəyi və köməyi ilə şəxsi evlərdə yerləşən kitabxanaların ictimai binalara köçürülməsi həyata keçirilmişdir. Belə ki, əvvəllər 109 kitabxanadan 41-i ictimai və 68-i isə şəxsi evlərdə yerləşirdi. Hazırda onlar da ictimai binalara köçürülmüşdür.**

Azərbaycan Respublikası prezidentinin 12 yanvar 2004-cü il tarixli, 56 saylı sərəncamına əsasən nəşr olunmuş kitablardan bu günədək rayonumuza 156870 nüsxə ədəbiyyat gətirilmiş və şəbəkələrə paylanmışdır.



* * *

Mədəniyyət və turizm nazirliyinin və Gədəbəy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Qurtuluş gününə həsr olunmuş tədbirdə xalq şairi Nəriman Həsənzadə, rayon icra hakimiyyətinin başçısı Kamran Rzazadə, nazirliyin dövlət əhəmiyyətli tədbirlərin təşkili və yaradıcı gənclərlə iş sektorunun müdiri Mənzərxanım Nurəliyeva, şairlər İlyas Tapdıq, Ağacəfər Həsənli, Taleh Həmid, nazirliyin müəyyənləşdirdiyi 40 nəfərə yaxın nümayəndə heyəti, millət vəkili Nazim Məmmədov və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdi.

Tədbirdən öncə onlar ulu öndərin adını daşıyan parka gəldilər, Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri qoydular. Sonra şəhər orta məktəbindəki Mir Cəlal muzeyi ziyarət olundu.

Tədbiri giriş sözü ilə açan icra hakimiyyətinin başçısı K.Rzazadə rayonun sosial-iqtisadi və mədəni sahədəki inkişafından danışdı.

Bildirdi ki, Gədəbəydə kənd təsərrüfatının inkişafına xüsusi önəm verilir, qızıl və mis zavodlarının fəaliyyət dairəsi genişləndirilir. K.Rzazadə həmçinin rayonun Şınıx bölgəsinin qazlaşdırılması üçün xüsusi proqram hazırlandığını, yeni iş yerlərinin açılmasını da diqqətə çatdırdı.

Milli Qurtuluş Gününün mahiyyətindən danışan icra başçısı 1993-cü ilin 15 iyun gününün Azərbaycanın müstəqillik tarixində yeni səhifə açdığını, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizin sabitlik və inkişaf yoluna qədəm qoyduğunu vurğuladı.






Tədbirin ədəbi-bədii hissəsində xalq şairi Nəriman Həsənzadə, şairlər İlyas Tapdıq, Ağacəfər Həsənli və Taleh Həmid ümummilli lider Heydər Əliyevə, Vətənə və torpağa həsr etdikləri şeirlərini oxudular.

F.Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının solistləri ("Cəngi", "Yallı", "Naz eləmə" rəqsləri ilə), gənc muğam ifaçıları Arzu Əliyeva və Babək Niftəliyev (tarda Ayaz İmranov, kamançada Elnur Mikayılovun müşaiyəti ilə), Gədəbəyin gənc aşığı Pərviz Cəfərov, "Qaya" Dövlət Ansamblı, skripkaçı Səlim Abbasov, aktyor-vokalçı Ramil Qasımov (Heydər Əliyevə həsr olunmuş mahnı ilə) çıxış etdilər...

* * *

**Tədbirdən sonra icra başçısı Kamran Rzazadənin təklifi ilə rayonun görməli yerlərini gəzdik, bir-birindən möhtəşəm abidələrini ziyarət etdik. Hara getdiksə orada Kamran müəllimə böyük məhəbbət və ehtiramın şahidi olduq.**

Təbii ki, bu bir rəhbər kimi onun mədəniyyətə, təhsilə, səhiyyəyə, kənd təsərrüfatı və sənayenin inkişafına, əhalinin maddi-rifah halının yaxşılaşdırılmasına göstərdiyi qayğı və diqqətə məntiqi cavab idi. Gədəbəydə elə bir kənd yoxdur ki, Kamran müəllim orada adamları ailəbailə tanımasın, dolanışıqları və yaşayış tərzləri ilə maraqlanmasın.

Fərəhli haldır ki, respublikamızın sayılıb-seçilən bu gözəl torpağının tarixinə dərindən bələddir, onun gülü-çiçəyi kimi qayasını, daşını da özünə doğmadan doğma, əzizdən əziz bilir. Bölgələrə gələn qonaqlara onları nümayiş etdirməkdən xüsusi həzz alır: "Gədəbəy rayonu Kiçik Qafqazın orta və yüksək dağlıq qurşaqlarında yerləşir. Ərazisi Şahdağ silsiləsinin şimal yamacını, Başkənd – Dəstəfur çökəkliyinin və Şəmkir dağ massivinin bir hissəsini əhatə edir:



Ən yüksək zirvələri Qoşabulaq (3549 m), Qocadağ (3317 m) və s. bu yerlərin gözəlliyinə əlavə rəng qatır. Yura, Tabaşir, Paleogen və Antropogen çöküntüləri yayılmışdır. Qara və ağ mərmər, qızıl yataqları var.

Axınca və Zəyəm çaylarının yuxarı axını Gədəbəy ərazisindədir. Qonur dağ-meşə, çimli dağ-çəmən və s. torpaqlar bura gələn qonaqların diqqətindən yayınmır. Orta dağlıqda kollu və seyrək meşəli çəmənlik-

lər, enliyarpaqlı meşələr (palıd, fısdıq, vələs), yüksək dağlıqda subalt və alp çəmənlikləri geniş yer tutur.

Meşələrin ümumi sahəsi 30 min hektardan çoxdur. Qayakeçisi, cüyür, qonur ayı, canavar və s. kimi heyvanları, tetra, ular, qartal və b. quşları ilə məşhurdur.

Möhtəşəm abidələri (Qızqalası, məbəd, körpü və s.) bu yerlərin şanlı keçmişindən xəbər verir..."

İcra başçısının bu sözləri nə vaxtsa ölməz şairimiz Bəxtiyar Vahabzadədən eşitdiyim bir söhbəti yada salır: «Qədim abidələr onları yaradan xalqın keçib gəldiyi yollardan, bu yollarda çatdığı fikir və xəyal məqamlarından xəbər verən nişangahlardır. Özünü neçə-neçə nəsillərə göstərib əsrlərin burulğanından keçib gələn bu abidələr susa-susa danışır, danışa-danışa susur. Bu baxımdan, abidələr susan daş nəğmələridir.

Bu nişangahlar bizə ulu əcdadımızın zövqündən, ruhundan, istedad və idrakından xəbər verir. Onların üstündəki oymalar, rəsmlər və yazılar ulularımızın keçən əsrlərdən əsrimizə göndərdiyi məktublardır...»

İndi Kamran müəllim «bu məktubları bizə oxudur», onlara səcdə qıldırır, qoruyub bundan sonrakı nəsillərə çatdırmağı da tövsiyə edirdi: «Bizim üçün ən müqəddəs varlıq anadır. Çox vaxt təbiətə də «ana» deyə müraciət edirik: ana təbiət! Bəs təbiətə ana qayğısı ilə yanaşırıqmı?! Onun qarşısında övladlıq borcumuzu dərk edə bilirikmi?! Təəssüf ki, yox! Öz sərvətlərini böyük səxavətlə bizə bəxş edən anamız təbiətin çox vaxt anasını ağlar qoyur, onun sinəsinə dağ çəkirik. Bilirik ki, havanın zəhərlənməsi, ətraf mühitin çirklənməsi bizə baha başa gəlir. Amma onlara qarşı ciddi mübarizəyə qalxmağa tələsmirik...

Bu mənada, möhtərəm prezidentimiz tərəfindən 2010-cu ilin «Ekologiya ili» elan edilməsi alqışlanılmalı haldır. Təvazökarlıqdan uzaq olsa da qeyd edim ki, gədəbəylilər bütün sahələrdə (saf təbiətinə, alimlərinin sayına və s.) olduğu kimi bu cəhətdən də başqa bölgələrdən seçilir. Respublikanın ayrı-ayrı şəhər, rayon və kəndlərində «Hərəyə bir ağac əkək!» kompaniyası bizdə «Hərəyə on ağac əkək!» çağırışı kimi həyata keçirilmişdir.

**Hesab edirəm ki, bütün bunlar Gədəbəyin gözəlliyinə əlavə çalarlar gətirəcək, bu dağlar diyarına turistlərin axınını gücləndirəcəkdir..."**

**Yaşar VƏLİYEV**

